# Göyərçin

ISSN-0207-4710

№ 7-8. 1998



# MƏHƏMMƏD PEYĞƏMBƏR QONŞULUQ HAQQINDA

**Yaxın qonşusu ac ola-ola tox yaşayan qonşu mö'min sayıla bilməz.**

***

**Allah-taalanın nəzərində ən yaxşı dost öz dostuna sadiq olan, ən yaxşı qonşu isə öz qonşusu ilə yaxşı dolanandır.**

***

**Allaha və axirət gününə iman gətirən kəs öz qonşusuna yaxşılıq etsin, Allaha və axirət gününə iman gətirən kəs öz qonağına hörmət etsin, Allaha və axirət gününə iman gətirən kəs ağzını ya xeyirliyə açsın, ya da sussun.**

***

**Peyğəmbərdən soruşurlar: "Ya Rəsulallah, iki qonşum var, onların hansına pay verməliyəm?" Həzrət Peyğəmbər buyurdu: "Qapısı sənə yaxın olana".**

***

**Ya rəbbə. Bu dünyadakı qonşum gəldi-gedərdi, məni axirət evində pis qonşudan özün qoru.**

## Quruyan agaclar

*Rafiq YUSİFOĞLU*

Ağaclar sevinirdilər. Ağaclar təzəcə özünə yurd-yuva quran iki qonşunun evi arasında sərhəd direklərinə dönmüşdülər. Qonşular növbə ilə onların dibini boşaldar, suvarar, gövdənin aşağı hissəsini əhənglə ağardardılar.

Ağaclar ağ corab geyən məktəbli uşaqlara bənzəyirdilər.

Budaqlarda yarpaqlar pıçıldaşar, quşlar nəğmə oxuyardı. Yel əsdikcə budaqlar o həyətə, bu həyətə aşar, kölgələr rəqs eləyərdi.

Nə üstdəsə qonşuların sözü çəp gəldi, giley-güzar acı bağırsaq tək uzandı, münasibətlər tamam pozuldu. Ağaclar "ağ corablarını soyundular". Yarpaqlar soluxdu. Hədə-hədyana, söyüşə, qarğışa dözə bilməyən yarpaqlar adamların yerinə xəcalət çəkdilər.

Qurumaqdan başqa çarə qalmadı. Ağaclar quruyub peşimançılıq heykəlinə döndülər.

## AYSELİN ARZUSU

*Dürrə HAQVERDİ*

Ayseli yuxudan günəşin al şəfəqləri oyatdı. O, əl-üzünə su vurub bağçada işləyən babasının yanına qaçdı. Baba yeni əkdiyi ağac şitillərinə su verirdi.

Aysel də babasının öyrətdiyi kimi öz sevimli güllərinin dibini yumşaltmağa başladı:

- Baba, ay baba, bu güllər açana kimi atam gələcək?

- Hə, mənim şirin-şəkər balam. Müharibə qurtaran kimi atan evimizə dönəcək.

- Baba, mən istəyirəm ki, atam gələndə bu güllərdən dəstə bağlayıb onu təbrik edəm.

- Sağ ol, mənim çiçək ətirli Aysel balam, atan üçün ən gözəl hədiyyə sənin güllərin olacaq...

## Qərib yolçu

*Məmmədtağı SİDQİ*

**Bir gün axşam vaxtı bir qərib yolçu gəlib bəydən gecələməyə yer istədi. Bəy razı olmayıb dedi:**

**- Bura mehmanxana deyil.**

**Qərib yolçu bəydən bu cavabı eşidib təvəqqe etdi ki, onun üç sualına cavab versin.**

**Bəy razılaşdı. Yolçu bəydən izn alıb soruşdu:**

**- Sizdən qabaq bu evdə kim olurdu?**

**Bəy cavab verdi:**

**- Mənim atam.**

**- Ondan qabaq kim olurdu?**

**- Babam, - deyə bəy cavab verdi.**

**- Bəs sizdən sonra bu evdə kim yaşayacaq?**

**- Ümidvaram ki, oğlum.**

**Qərib yolçu bəyin bu cavabından sonra dedi:**

**- Belə isə, Siz bu evdə mehman deyilsiniz, bəs nəsiniz? Bu eviniz də həqiqətən mehmanxana deyilmi?**

**Qərib yolçunun bu sözündən bəyin xoşu gəldi və onu qonaq saxladı.**

Rəssam Ənvər Qarayev

